# ŞUŞA RAYONUNUN MEŞƏ VƏ YÜKSƏK DAĞLIQ BİTKİLİYİNİN ARAŞDIRILMASI VƏ İSTİFADƏSİ

**Elşad Qurbanov**

*Bakı Dövlət Universiteti, elshad_g@rambler.ru*

Şuşa rayonu ərazisinin əsasən dağ yamaclarında canlı (sıx) örtük yaratmış meşələr əksər yerlərdə seyrək də olsa, meşəsizləşdirilərək bozqır çəmənliklərinə çevrilmişdir. İşğal dövründə (08 may 1992-08 noyabr 2020) Qarabağ iqtisadi-coğrafi bölgəsinin hüdudlarında, eləcə də Şuşa rayonunda meşələr erməni vandallari tərəfindən vəhşicəsinə qırılaraq ekosid prosesi törədilmişdir. Araşdırmalar göstərir ki, bu rayonun ərazisində işğal dövründə fasiləsiz antropogen və texnogen təsirlərə məruz qalan Şuşa və Qarabağın digər iqtisadi rayonlarında 30 il əvvəl mövcud olmuş biomüxtəliflik uzun müddətə bərpa oluna bilər. Odur ki, meşə və çəmən bitkiliyinin elmi-metodiki əsaslarla bərpası məsələsi aktual poblem kimi qarşıda durur.

Şuşa rayonu ərazisində tipik qəhvəyi dağ-meşə torpaqlarında formalaşan dağ meşələrində öncə qeyd edildiyi kimi, Şərq fıstığı (*Fagus orientalis*), gürcü palıdı (*Quercus iberica*), Qafqaz vələsi (*Carpinus causasica*) üstünlük və ya dominantlıq təşkil edir. Çirişli dağının aşağı hissəsində, dəniz səviyyəsindən 1160-1210 m yüksəklikdə tək-tək şabalıd (*Castanea sativa*) ağaclarına rast gəlinir və bunlar palıdlı-vələsli meşəliyin tərkibinə daxil olur. Meşə altında *Corulus avellana, Prunus divaricata, Mespilus germanica, Prunus spinosa, Euonymus, Grataegus, Rosa* və s. müxtəlif kollara rast gəlinir. Meşələrdə *Carpinus, Acer, Fraxinus* və *Quercus* cinslərinə aid ağac və kol növləri yayılmışdır.

Rayonun 1:600000 miqyasında fiziki xəritəsindən göründüyü kimi, Şuşa rayonuna şimal enliyində $46^0 45''$ və $39^0 40''$ Şərq uzunluq dairəsində coğrafi mövqe xasdır. Bu inzibati rayonun əsas dağ zirvələri Böyük Kirs (2725 m), Kiçik Kirs (2346 m), Sarıbaba (2295 m), Şiştəpə (2283 m), Turşsu (2241 m) olub, səthi relyefinə görə yüksək dağlıqdır, şərq hissəsi isə Keçəldağ aşırımı ilə hüdudlanır və Qarabağ silsiləsi adlanır. Rayonun ərazisi məşhur mineral su (Turşsu) və bulaqlarla (İsa bulağı və s.) zəngindir. Ərazinin əsas çayları Qarqarçayın qolları sayılan Zarıslı (18 km) və Xəlfəli (24 km) çaylarıdır.

Şuşa rayonunun inzibati ərazisi Laçın, Xocavənd, Xocalı və Xankəndi rayonları ilə sərhədlənir. Rayonun ərazisi qışı quraq keçən mülayim-isti və qışı quraq keçən soyuq iqlim tipinə malikdir. Havanın orta illik temperaturu 8-4$^{O}$C, yağntının illik miqdarı 700-800 mm, qarla örtülü günlərin miqdarı 50-70, dolu düşən günlərin sayı 4-6 olur.

2015-ci ilin torpaq balansına əsasən, Qarabağın ümumi sahəsi 440372 hektardır. Qarabağ yaylası yay otlaqlarının sahəsi 195,6 min ha təşkil edir, bundan 70,2 min ha Laçın, 18,2 min ha Ağdərə, 3,7 min ha Şuşa rayonuna mal-qara sürülərinin otarılması üçün təhkim olunmuşdur. Şuşa rayonunun sahəsi 290 km$^2$-dir.

"Azərbaycanın təbii yem sahələrinin səmərli istifadəsi və bərpasına dair 2005-ci ilədək Baş Sxemi", eləcə də "Qarabağ iqtisadi-coğrafi bölgüsü"nün torpaq xəritəsindən göründüyü kimi, Şuşa rayonunun yay otlaqlarında alp və subalp çəmənləri sıx çimli dağ-çəmən, torflu dağ-çəmən, bozqır dağ-çəmən və dağ meşə-çəmən torpaqlarında rast gəlinir. Torpaqların qranometrik tərkibində münbitliyin göstəricisi sayılan humus 3,3-25,2% arasında dəyişir.

V.C.Hacıyevin tərtib etdiyi "Azərbaycanın bitki örtüyü xəritəsi"nin (1:600000 miqyasında), E.M. Qurbanovun (1:600000) bitkilik xəritəsindəki dürüstləşdirməsindən bəlli olur ki, Şuşa rayonu ərazisində subalp qurşağında hündür otluqda qarışıq taxıllı və taxıllı-müxtəlif otlu subalp çəmənliyi, dağ meşələri, kolluqlar və seyrək kserofit meşəlik tiplərinə xas formasiya qruplaşmalarına təsadüf olunur.

Meşədən sonra hündür otluqla sərhədlənən subalp çəmənlərinə rast gəlinir, subalp çəmənlərinin məhsuldarlığı alp bitkiliyinə nisbətən daha yüksəkdir, eləcə də subalp fitosenozunda mal-qaranın yemədiyi, zərərli və zəhərli bitkilər geniş yayılmışdır.

Ərazinin relyefi yamacların meylliliyi, torpaq-iqlim şəraiti, bitkilərin bioekoloji xüsusiyyətlərindən asılı olaraq, formasiyaların (assosiasiyaların) növ tərkibi, quruluşu və məhsuldarlığının dəyişməsi ilə fərqlənir.

Qarabağ yaylası ərazisində xarakterik formasiyalarla təmsil olunan aşağıdakı bitkilik tiplərinə rast gəlinir:

1. Tam inkişaf etməmiş (kövrək) çimli dağ-çəmən torpaqlarında yayılan alp, subalp çəmən və çəmən-bozqırlar zonasının bitkiliyi;
2. Torflu-çimli dağ-çəmən bozqırları üzərində yayılan alp və subalp çəmənlər və çəmən-bozqırlar zonasının bitkiliyi;
3. Dağ çəmən-bozqır torplaqarında yayılan alp, subalp çəmən və çəmən bozqırları zonasının bitkiliyi;
4. Dağ çəmən-meşə torpaqlarında yayılan subalp-çəmən və çəmən bozqırları zonasının bitkiliyi;
5. Dağ kserofil meşələr və dağ bozqır zonasının bitkiliyi.

Onu da əlavə etmıək lazımdır ki, geobotaniki tədqiqata əsasən, respublikanın ərazisində alp və subalp zonalarında 93 bitki formasiyası yayılmışdır [1, 2].

Son illərdə aparılan müşahidələr göstərir ki, Şuşa rayonunun dağlıq ərazisindəki yay otlaqlarında formalaşan alp və subalp bitkiliyində antropogen amillərin (xüsusən minalanmış sahələrdə) mənfi təsirindən torpaqların eroziyaya (hərbi-texniki eroziya) uğraması səbəbindən bitki örtüyü deqradasiyaya məruz qalmışdır. Son 30 ildə torpaqdan və bitkilərdən sistemsiz istifadə məhsuldarlığı azaltmaqla yem keyfiyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Odur ki, belə neqativ təsirlərin davam etməsi burada bitən endemik, adı Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş növlərin qorunmasında çətinlik yaradır. Buna görə də Şuşa rayonunun yay otlaqlarında yayılan alp və subalp bitkiliyinə dair geobotaniki araşdırmaya əsaslanmaqla aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilir:

- Səthin yaxşılaşdırılmasına aid tədbirlərin (zərərli, zəhərli bitkilərin məhvi və s.) görülməsi;
- Çim əmələ gətirən çoxillik yem bitkilərinin aqrotexniki qaydalara əsasən bərpası;
- Seyrəkləşən sahələrə mineral və üzvi gübrələrin verilməsi;
- Torpağın su-hava rejiminin tənzimləməsi və bitkilərin vegetasiyasından sonra alp və subalp, eləcə də çəmən-bozqır bitkiliyindən səmərəli istifadə.

Yuxarıda qeyd olunan kompleks tədbirlərin Qarabağ yaylasının Şuşa və digər inzibati rayonlarının yay otlaqlarında tətbiqi təbii bitkiliyin, yabanı floranın, eləcə də biomüxtəlifliyin qorunması və biogeosenozun mühafizəsinə zəmin yaradacaqdır.